<u>**Bakı-Moskva-Ryazan yolçuluğu: Yesenin konfransı**</u>

Bir neçə gün əvvəl, 27-29 sentyabr tarixlərində dahi rus şairi S Yeseninin anadan olmasının 117 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransda iştirak edirdim. Sentyabrın 27-də Moskvada, M.Qorki adına dünya ədəbiyyatı institutunda başlayan konfrans növbəti gün Ryazanda, S.Yesenin adına Ryazan dövlət universitetində davam etdi və nəhayət, sentyabrın 29-da Ryazan vilayətinin Konstontinovo kəndində - Yeseninin doğma yurdunda başa çatdı. Konfransda 7 ölkədən (Rusiya, Ukrayna, Belarus, Polşa, Bolqarıstan, Fransa və Azərbaycan) ümumilikdə 100-dən çox nümayəndə iştirak edirdi.

Konfransın ilk günü yuxarıda qeyd etdiyim kimi, Moskvada M.Qorki adına dünya ədəbiyyatı institutunda baş tutdu. Rəsmi təbriklərlə yanaşı maraqlı məruzələrlə dolu bir plenar yığıncaq oldu. Məşhur yeseninşünas Yuri Prokuşevin oğlu, həkim, professor Vladimir Prokuşevin təbrik çıxışı yaddaqalan oldu. Onunla söhbətimizdə Bakını çox sevdiyini, dəfələrlə burada olduğunu deyən alim Bakı üçün darıxdığını da söyləməyi unutmadı.

Günün axırında, saat 16:30-da Ryazana yola düşdük. Moskvadan 180 km məsafədə yerləşən Ryazan Oka çayının kənarında yerləşir, yarım milyondan çox əhalisi var. Rusiyanın elmi, hərbi və sənaye mərkəzlərindən biridir. Saat 10:00-da S.Yesenin adına Ryazan dövlət universitetində olduq. Maraqlı məruzələrlə dolu olsa da, gün ağır keçdi. Universitetin əsas konfrans zalında keçirilən plenar iclasda mənim də "İki xalq nəğməkarı: Serqey Yesenin və Cabbar Qaryağdıoğlu" mövzusunda məruzəm oldu. Plenar iclasdan sonra iştirakçılar seksiyalar bölündülər. Mənim məruzəm plenar iclasda olduğundan seksiyalar zamanı bir qədər sərbəst idim. Həmin vaxt universiteti gəzərək, tələbələrlə söhbət etdim, kitabxanaya baş çəkdim. Bir qədər sonra universitetin kompleks oxu zalında toplaşmış 2-ci seksiya iştirakçılarına qoşuldum. Burada diqqətimi çəkən ən "maraqlı" məsələ isə Nijniy Novqoroddan gəlmiş iştirakçının - gənc bir qızın "Yeseninin lirikasında rok-potensial" adlı məruzəsi və onun Oryoldan gəlmiş iştirakçı Aqarkov Qeorqiy Aleksandroviçlə başlayan qalmaqallı müzakirəsi oldu.

S.Yesenin adına Ryazan dövlət universitetində toplantılar başa çatdıqdan sonra, saat 5-də şəhərin ən qədim yerlərindən birinə, Böyük Ryazan xanlığının paytaxtı "Qədim Ryazan"a, başqa sözlə, "Ryazan Kremli"nə səfərimiz təşkil olundu. Ağır gündən sonra qədim bir sarayı ziyarət etmək,

geniş, gül-çiçəklərlə dolu saray həyətində gəzişmək xüsusi zövqverici idi. Yaxınlıqda isə Yeseninin məhtəşəm abidəsi xüsusilə fərqlənirdi.

Növbəti gün, sentyabrın 29-da səhər tezdən avtobusla Yeseninin anadan olduğu kəndə - Konstontinivo kəndinə yola düşdük. Avtobusda baş verən bir hadisə xeyli kefimizi qaldırdı. Avtobus yola düşəndən bir neçə dəqiqə sonra bir nəfər tələsik sürücüdən avtobusu saxlamağı xahiş etdi. “Zəhmət olmasa saxlayın, bir şey yadımdan çıxıb” deyə o, sürücüyə müraciət etdi. Kimsə “o nədir yaddan çıxan?” deyə soruşdu. Həmin adam: “Məruzəmi oteldə unutmuşam”. Bu cavab avtobusdakılartın onsuz da yüksək olan əhval-ruhiyyəsini bir qədər də qaldırdı.

Konstantinovo kəndi Moskva – Ryazan avtomagistralından 21 kilometrlik məsafədə yerləşir. Avtomagistraldan kəndə tərəf buralduqdan sonra göz önündə açılan ucsuz-bucaqsız düzənliklər, taxıl tarlaları başlayır ki, Yesenin öz şeirlərində elə bu mənzərələri tərənnüm etmişdir:

Потому, что я с севера, что ли,
Что луна там огромней в сто раз.
Как бы ни был красив Шираз,
Он не лучше рязанских раздолий.
Потому, что я с севера, что ли.

Про волнистую рожь при луне
По кудрям ты моим догадайся.
Дорогая, шути, улыбайся,
Не буди только память во мне
Про волнистую рожь при луне.

Nəhayət, müqəddəs Konstantinovo kəndinə çatdıq. Burada fəaliyyət göstərən muzey 1965-ci il oktyabrın 2-də Yeseninin anadan olmasının 70 illiyi münasibətilə yaradılmış və SSRİ Nazirlər Sovetinin 7 mart 1984-cü il tarixli sərəncamı ilə Dövlət Qoruq – Muzeyi statusu almışdır. Muzey təxminən 15 hektar sahəni əhatə edir.

Həmin gün Elmi-mədəni mərkəz – ədəbi müzeyin konfrans zalında bir-birindən maraqlı məruzələr oldu. Sonda Yesenin yaradıcılığına həsr olunmuş bir neçə kitabla birlikdə mənim yenicə rus dilində çapdan çıxmış «Незадаром ему мигнули очи – Есенин в Баку» adlı kitabımın da təqdimat mərasimi oldu.

Axşamüstü, rəsmi görüşlər başa çatdıqdan sonra son dərəcə maraqlı bir tədbir baş tutdu. Təşkilat komitəsi Yeseninin sağlığında evlərinin həyətyanı sahəsində mövcud olmuş, sonradan atasının ləğv etdiyi gilənar bağını bərpa etməyi planlaşdırmışdı.

Yeseninin doğulduğu ev kəndin, demək olar ki, lap mərkəzində yerləşir. Evdən «Казанской иконы Божией матери» kilsəsinə, Oka çayına və Yeseninə sönməz ilham verən Ryazan düzənliklərinə möhtəşəm mənzərə açılır. Ev 1871-ci ildə Yeseninin babası N.O.Yesenin tərəfindən tikilmişdir. 1910-cu ildə yanğın nəticəsində ev yanır və Yeseninin atası bir az kiçik ölçülü yeni ev tikir, həyətyanı sahə alır. Lakin 1922-ci ilin avqustunda yenidən yanğın baş verir, ev, demək olar ki, tamamilə yanaraq yararsız hala düşür. Təxminən 2 il Yeseninin valideynləri kiçik qızları A.A.Yesenina ilə bağlarındakı daxmada yaşayırlar. Nəhayət, 1924-cü ildə burada Yeseninin şəxsi iştirakı və maliyyə köməkliyi ilə yeni ev tikilir.

Həyətyanı sahədə 1913-cü ildə tikilmiş köhnə anbar durur. Bura Yeseninin ən çox sevdiyi guşələrdən biri olmuşdur. Yesenin yay vaxtı evlərinə gələrkən bu anbara çəkilərək işləməyi, dincəlməyi və hətta gecələməyi çox sevərmiş.

Anbarda Yeseninin yatdığı çarpayı və balaca iş stolu indi də olduğu kimi saxlanılır. Anbarın ətrafında Yeseninin bacılarının xatirələrinə əsasən sonradan əkilmiş bir neçə gilənar və alma ağacları həyətə xüsusi gözəllik verir.

Yesenin 1925-ci ildə bacısı Yekaterinaya yazdığı "Bacıma məktub" («Письмо к сестре») şeirində öz gilənar bağlarını belə xatırlayır:

Привет, сестра!
Привет, привет!
Крестьянин я иль не крестьянин?!
Ну как теперь ухаживает дед
За вишнями у нас, в Рязани?

Ах, эти вишни!
Ты их не забыла?
И сколько было у отца хлопот,
Чтоб наша тощая и рыжая кобыла
Выдергивала плугом корнеплод...

Отцу картофель нужен.
Нам был нужен сад.

И сад губили,
Да, губили, душка!
Об этом знает мокрая подушка
Немножко... Семь...
Иль восемь лет назад.

Konfransın təşkilat komitəsi Yeseninin bu şeirində yana-yana təsvir etdiyi həmin gilənar bağını keçmişə uyğun bərpa etmək məqsədi ilə konfrans iştirakçıları tərəfindən gilənar ağaclarının basdırılmasını həyata keçirdi. Hər 3 nəfərə 1 ağac olmaqla, ümumilikdə 20-yə yaxın gilənar ağacı əkildi. Mən də M.Qorki adına dünya ədəbiyyatı institutunda Yesenin Qrupunun rəhbəri, tanınmış yeseninşünas, professor Şubnikova-Quseva Nataliya İqoryevna və daha bir nəfərlə birlikdə bir ağac əkdim. Sonra mənim təklifimlə, bir neçə ildən sonra qarışıq düşməsin deyə, əkdiyimiz ağacın yerini nişanladıq. Beləliklə: *Yuxarıda qeyd olunan 1913-ci ildə tikilmiş anbarın sol küncündən əkilmiş ağaclarasarı baxanda 4-cü ağac.*

Günümüz başa çatdı. Beləliklə də böyük rus şairi S Yeseninin anadan olmasının 117 illiyinə həsr olunmuş 3 günlük beynəlxalq konfrans öz işini başa vurmuş oldu. Sonra xüsusi ayrılmış avtobusla Moskvaya yola düşdük. Moskva yolçuluğunun isə öz ləzzəti var idi.

Şeirlər, nəğmələr və daha nələr, nələr...

**İsaxan İsaxanlı**

***Mənbə:***

***Xəzər Xəbər, (jurnal) № 311, səh.20-22, oktyabr, 2012, Xəzər universitəsi***